# **Həftəlik**
# *Bülleten*

**109**

**19 Sentyabr 2025**



Xəbərlər
Tədbirlər
Görüşlər
Tender və lahiyələr
Dünya tikililəri

ATMİA

info@atmia.az www.atmia.az

**2-3-4-5 otaqli evlər, 2-3 mərtəbəli binalar - Füzulidə Qaraxanbəyli kəndinin təməli qoyulub.**

Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 14-də Füzuli rayonunun yeni salınacaq Qaraxanbəyli kəndinin təməlini qoyub. Tədbirdə Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlət başçısına görüləcək işlər barədə məlumat verib. Bildirilibi ki, yeni salınacaq kəndə Ermənistanın işğalı zamanı dağıdılmış Qaraxanbəyli və Merdinli kəndlərinin sakinləri yerləşdiriləcək. Gələn il yekunlaşdırılması nəzərdə tutulan birinci mərhələ 87 hektara yaxın ərazidə həyata keçiriləcək. Bu mərhələdə 404 ailənin, ümumilikdə 1861 nəfərin köçürülməsi nəzərdə tutulur. Ərazidə 81 ədəd iki, 202 ədəd üç, 101 ədəd dörd, 20 ədəd beşotaqlı olmaqla 404 fərdi ev inşa ediləcək. Kənddə sosial infrastrukturun, o cümlədən inzibati və xidmət binalarının, məktəbin, uşaq bağçasının, tibb məntəqəsinin inşası, 16 kilometrə yaxın daxili yolların, həmçinin elektrik, qaz, su və kanalizasiya xətlərinin çəkilməsi planlaşdırılır. 2027–2030-cu illəri əhatə edəcək ikinci mərhələ isə 230 hektara yaxın ərazidə icra olunacaq. Həmin dövr buraya 1075 ailənin, ümumilikdə 4093 nəfərin köçürülməsi nəzərdə tutulur. İki, üç, dörd və beşotaqlı olmaqla 771 fərdi ev və iki-üçmərtəbəli yaşayış binaları inşa ediləcək. İkinci mərhələ çərçivəsində də məktəbin və 2 uşaq bağçasının inşası planlaşdırılır. Əhalinin və evlərin sayı kəndin 20 illik perspektiv inkişafı nəzərə alınmaqla müəyyən edilib.



**Bakıda şəhərsalma təşəbbüslərinin dəstəklənməsi üzrə İşçi qrupu yaradıldı.**

Baş nazir Əli Əsədov Bakı şəhərinin sosial-iqtisadi inkişafı istiqamətində strateji əhəmiyyətli şəhərsalma təşəbbüslərinin dəstəklənməsi üzrə İşçi qrupun yaradılması haqqında Nazirlər Kabinetinin Sərəncamını imzalayıb. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 30 dekabr tarixli 504 nömrəli Qərarı ilə təsdiq edilmiş “Bakı şəhərinin 2040-cı ilədək inkişafına dair Baş Planı” (Baş Plan) Bakının müasir şəhərsalma prinsipləri əsasında daha da inkişaf etdirilməsini, rahat və inklüziv yaşayış mühitinin yaradılmasını, sosial və mədəni həyatın inkişafına xidmət edən məkanların formalaşdırılmasını nəzərdə tutur. Baş Plana uyğun olaraq yenidən qurulması nəzərdə tutulan ərazilərin inkişafı üzrə müəyyənləşdirilmiş hədəflər yerli və xarici investorların (investorlar) əlavə marağına səbəb olaraq, konkret investisiya təkliflərinin irəli sürülməsini təşviq etmişdir. Sərəncam ilə, Bakı şəhərində dayanıqlı və inklüziv şəhər inkişafını təmin edən müasir şəhərsalma təşəbbüslərinə, o cümlədən çoxmərkəzli şəhər və şəhər içində şəhər konsepsiyalarına əsaslanan layihələrə (şəhərsalma investisiya layihələri) investisiyaların cəlb edilməsi, bu növ layihələrin həyata keçirilməsi niyyətini bildirmiş investorlara layihələrin reallaşdırılmasına aidiyyəti dövlət orqanları (qurumları) tərəfindən dəstək göstərilməsi və onun müvafiq institusional çərçivə vasitəsilə əlaqələndirilməsi məqsədilə aşağıdakı tərkibdə İşçi qrup yaradılıb.



**Azərbaycanda ticarət-əyləncə kompleksləri üçün layihələndirmə normaları təsdiqlənib.**

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Kollegiyası "Ticarət-əyləncə kompleksləri. Layihələndirmə normaları"nı təsdiqləyib. Bununla bağlı Kollegiyanın sədri Anar Quliyev yeni qərar imzalayıb. Qərara əsasən, bu normalar hündürlüyü 50 m-ə qədər, yeraltı hissəsinin dərinliyi yer səviyyəsindən 15 m-ə qədər olan yeni, yenidən qurulan və əsaslı təmir olunan ticarət-əyləncə komplekslərinin layihələndirilməsinə şamil olunacaq. Bundan başqa, layihə tapşırığına əsasən eyni vaxtda 50-dən çox insanın bir məkanda olması ehtimal olunan ticarət-əyləncə komplekslərinin layihə həllərində antiterror təhlükəsizliyi təmin edən tələblər nəzərdə tutulmalıdır. Obyektin antiterror mühafizəsinin təmin edilməsinə dair tədbirlərin tərkibinə - təşkilatçılıq və rejim xarakterli tədbirlər, mühəndis-texniki xarakterli tədbirlər, tikinti dövründə obyektin mühafizəsi üzrə layihə həllərinin və tədbirlərin əsaslandırılması daxil olmalıdır. Ticarət-əyləncə komplekslərinin ərazisində terror aktı ehtimalını əhəmiyyətli dərəcədə azaltmaq və onun ərazisində olan insanların mühafizəsini gücləndirmək məqsədilə texniki aşkarlama vasitələri ilə yanaşı, kompleksin ərazisinə girişlərdə postlar aşağıdakı cihaz və avadanlıqlarla təchiz edilməlidir.



**Şuşa Zəfər Muzeyini İtaliya şirkəti layihələndirəcək.**

"Azərbərpa Elmi-Tədqiqat Layihə İnstitutu" MMC növbəti tenderin qalibini açıqlayıb. Qurum "Şuşa Zəfər Muzeyinin layihələndirilməsi (tikinti üzrə layihə-smeta sənədlərinin hazırlanması) və məzmunun hazırlanması işlərinin satın alınması" işləri ilə bağlı birbaşa satınalma həyata keçirib. Layihələndirmə işlərini İtaliyanın "ArtCloud Network International s.c.r.l" şirkəti həyata keçirəcək. İşlər 1 milyon 11 manata başa gələcək. Xatırladaq ki, "ArtCloud Network International s.c.r.l" şirkəti daha öncə də "Azərbərpa Elmi-Tədqiqat Layihə İnstitutu" MMC bir neçə birbaşa satınalma həyata keçirib. Həmin satınalmalar aşağıdakılardır: "Qubadlı İşğal və Zəfər Muzeyləri Kompleksinin layihələndirilməsi (tikinti üzrə layihə-smeta sənədlərinin hazırlanması) və məzmunun hazırlanması işlərinin satın alınması", "Şuşa İşğal Muzeyinin layihələndirilməsi (tikinti üzrə layihə-smeta sənədlərinin hazırlanması) və məzmunun hazırlanması, Laçın İşğal və Zəfər Muzeyi Kompleksinin layihələndirilməsi (tikinti üzrə layihə-smeta sənədlərinin hazırlanması) və layihələndirilməyə nəzarət xidmətləri. ArtCloud Network International s.c.r.l. şirkəti İtaliyada yerləşən və mədəni irsin qorunması, inkişafı ilə məşğul olan beynəlxalq şirkətdir. Şirkət mədəni irsin qorunması üçün ənənəvi və innovativ həlləri birləşdirərək, beynəlxalq institutlarla əməkdaşlıq edir.



**Füzulidə salınacaq Qaraxanbəyli kəndinin layihəsinin detalları açıqlanıb.**

Prezident İlham Əliyevin təməlini qoyduğu Füzuli rayonunun Qaraxanbəyli kəndi 6 000 nəfərə yaxın əhaliyə hesablanıb.

Bunu Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev "X" sosial şəbəkəsində hesabında bildirib.

O qeyd edib ki, gələn il yekunlaşdırılması nəzərdə tutulan 1-ci mərhələdə 87 hektar ərazidə 404 ailənin (1861 nəfərin) köçürülməsi məqsədilə 81 iki, 202 üç, 101 dörd, 20 beşotaqlı olmaqla ümumilikdə 404 fərdi evin inşası planlaşdırılır: "Kənddə sosial infrastrukturun, o cümlədən inzibati və xidmət binalarının, məktəbin, uşaq bağçasının, tibb məntəqəsinin inşası, 16 kilometrə yaxın daxili yolların, həmçinin elektrik, qaz və su xətlərinin çəkilməsi planlaşdırılır".

A. Quliyev vurğulayıb ki, 2027–2030-cu illəri əhatə edəcək 2-ci mərhələ 230 hektara yaxın ərazidə icra olunacaq. Bu mərhələdə 1075 ailənin (4093 nəfərin) köçürülməsi məqəsdilə 771 fərdi evin (iki, üç, dörd və beşotaqlı) və iki-üçmərtəbəli yaşayış binalarının inşası nəzərdə tutulur. Əhalinin və evlərin sayı kəndin 20 illik perspektiv inkişafı nəzərə alınmaqla müəyyən edilib.



**Heydər Əliyev və Ziya Bünyadov arasındakı və Neft Emalı Zavodu ətrafındakı ərazilər yenidən qurulacaq.**

Bakıda Böyükşor gölü ətrafında, Heydər Əliyev və Ziya Bünyadov prospektləri arasında, Heydər Əliyev adına Neft Emalı Zavodu ətrafında olan ərazilərin dövlət-özəl tərəfdaşlığı modeli çərçivəsində razılaşdırılmış konseptual layihələr əsasında yenidən qurulması nəzərdə tutulur. Bu, Baş nazir Əli Əsədovun imzaladığı sərəncamda öz əksini tapıb. Sərəncama əsasən, Bakı şəhərinin sosial-iqtisadi inkişafı istiqamətində strateji əhəmiyyətli şəhərsalma təşəbbüslərinin dəstəklənməsi üzrə İşçi qrupu yaradılıb. Sözügedən işlərin həyata keçirilməsi üçün investisiya qoyuluşuna zəruri şərait yaradılmasını, həmin layihələr üzrə investisiya müqavilələrinin şərtlərinin razılaşdırılmasını və digər zəruri tədbirlərin görülməsini təmin etmək İşçi qrupuna həvalə edilib. Məqsəd Bakı şəhərində dayanıqlı və inkluziv şəhər inkişafını təmin edən müasir şəhərsalma təşəbbüslərinə, o cümlədən çoxmərkəzli şəhər və şəhər içində şəhər konsepsiyalarına əsaslanan layihələrə (şəhərsalma investisiya layihələri) investisiyaların cəlb edilməsi, bu növ layihələrin həyata keçirilməsi niyyətini bildirmiş investorlara layihələrin reallaşdırılmasına aidiyyəti dövlət orqanları (qurumları) tərəfindən dəstək göstərilməsi və onun müvafiq institusional çərçivə vasitəsilə əlaqələndirilməsidir.



**Azərbaycanda binaların enerji effektivliyi üzrə pasportlaşdırılması məcburi olacaq.**

Azərbaycanda yeni tikilən, yenidən qurulan, əsaslı təmir olunan yaşayış və qeyri-yaşayış binaları enerji effektivliyi üzrə məcburi pasportlaşdırılacaq. Bu, Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin bu gün keçirilən iclasında müzakirəyə çıxarılan “Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında” qanuna təklif edilən yeni - 17.3-cü maddədə əksini tapıb. Layihəyə əsasən dünya, ölkə və yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısına daxil edilmiş binalar (tikililər), yardımçı və müvəqqəti tikililər, istixanalar və anbar binaları, istehsalat binaları, fərdi yaşayış evləri, Şəhərsalma və Tikinti Məcəlləsinin 81.1-ci maddəsində göstərilən reklam qurğuları və həmin məcəlləsinin 89.1-ci maddədə göstərilən ekspertizadan keçirilməsi tələb olunmayan tikinti obyektləri istisna olmaqla, digər yaşayış və qeyri-yaşayış binalarının enerji effektivliyi üzrə pasportlaşdırılması məcburi xarakter daşıyacaq. Pasportlaşdırma bu qanun qüvvəyə mindikdan sonra yeni tikilən, yenidən qurulan, əsaslı təmir olunan yaşayış və qeyri-yaşayış binaları üçün məcburi olacaq, istismarda olan binalara şamil olunmayacaq.



**“Matanat A” Şirkətlər Qrupu “KazBuild 2025” Beynəlxalq İnşaat sərgisində Azərbaycanı təmsil edib.**







Quru və maye inşaat qarışıqları üzrə regionun qabaqcıl istehsalçısı olan “Matanat A” Şirkətlər Qrupu Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) təşkilatçılığı ilə 3-5 sentyabr 2025-ci il tarixlərində təşkil olunan “KazBuild 2025” Beynəlxalq İnşaat sərgisində iştirak edib.

“Made in Azerbaijan” ölkə stendində uğurla təmsil olunan “Matanat A” Şirkətlər Qrupuna məxsus #MATANAT, #AZWOOL, #SHPAK, #İzoLatexe, #Mirvana, #ROKOL, #MUTLU və s. brendləri sərgi iştirakçıları tərəfindən maraqla qarşılanıb.

Qeyd edək ki, hazırda şirkət 4 sistem, 27 məhsul qrupu üzrə 200-dən çox ticarət markasına malikdir və 3000-ə yaxın məhsul çeşidi istehsal edir. 25 ildir uğurla fəaliyyət göstərən şirkət qloballaşaraq "MATANAT" ticarət markası adı altında istehsal etdiyi məhsullarını Qazaxıstan, Gürcüstan, İraq, Ukrayna, Özbəkistan və digər xarici ölkələrə ixrac edir.

**Hörmətli sahibkarlar!**

29 sentyabr – 1 oktyabr 2025-ci il tarixlərində Minskdəki BELEXPO mərkəzində "INNOPROM Belarus" beynəlxalq sənaye sərgisi keçiriləcək. Sərgi sənayenin müxtəlif sahələrini, innovativ şirkətləri, investorları və dövlət qurumlarını bir araya gətirən, təcrübə mübadiləsi və yeni texnologiyaların tətbiqi üçün unikal platformadır.
Sərgidə iştirak etmək istəyən şəxslər 0102500324 nömrəsi ilə əlaqə yarada bilərlər.
Sərgi haqqında ətraflı məlumat üçün: https://belarus.biwexpo.com/



# SƏRGİ/KONFRANS/FORUM

**Sərginin adı: CONSTRUCT IRAQ 2025**

**Tarixlər: 23-26 sentyabr 2025-ci il,**

**Məkan: Ərbil Beynəlxalq Sərgisi, Ərbil (İraq)**

İnşaat Sənayesi üçün Beynəlxalq Ticarət Sərgisi. Tikinti materialları və texnologiyaları, podrat xidmətləri, istilik, elektrik infrastrukturu, havalandırma, kondisioner (HVAC), nasos sistemləri.

**Sərginin adı: 100+ TECHNOBUILD 2025**

**Tarixlər: 30 sentyabr - 03 oktyabr 2025-ci il,**

**Məkan: IEC 'Ekaterinburg-Expo', Yekaterinburq (Rusiya)**

100+ TechnoBuild binaların və unikal strukturların layihələndirilməsi, tikintisi, maliyyələşdirilməsi və istismarına həsr olunmuş beynəlxalq konqres və peşəkar yönümlü sərgidir.

**Sərginin adı: BUILDING INDUSTRY SOLUTIONS 2025**

**Tarixlər: 30 sentyabr - 02 oktyabr 2025-ci il,**

**Məkan: Ptak Varşava Sərgisi, Varşava (Polşa)**

Polşa Beynəlxalq Tikinti Sənayesi Ticarət Sərgisi. Varşava İnşaat Maşınları Sərgisi tikinti sənayesində fəaliyyət göstərən sahibkarların cari ehtiyaclarına cavab verən bir tədbirdir.

**Sərginin adı: ZAK WORLD OF FAÇADES - SAUDI ARABIA - JEDDAH 2025**

**Tarixlər: 30 sentyabr 2025-ci il,**

**Məkan: Ritz-Carlton, Ciddə, Ciddə (Səudiyyə Ərəbistanı)**

Zak World of Fasades fasad dizaynı və mühəndisliyi üzrə beynəlxalq konfrans seriyasıdır

**AĞDAMLA BAĞLI 38 MILYONLUQ TENDER.**

Ağdam, Füzuli və Xocavənd Rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti publik hüquqi şəxsi (VÖEN: 3201635961) açıq müsabiqə elan edib.
Elan Ağdam şəhəri 5 nömrəli yaşayış massivi üzrə yaşayış və qeyri-yaşayış binalarının daxili kommunikasiya işlərinin və avadanlıqların satın alınmasını əhatə edir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi –

Hikmət Qasımov, Satınalma və təchizat departamentinin müdir müavini, Satınalma şöbəsinin müdiri.
Əlaqə telefon: +994 55 248 66 99.
Email: h.gasimov@afxbti.gov.az



**"DAYANIQLI VƏ OPERATİV SOSİAL TƏMİNAT AGENTLİYİ" PUBLİK HÜQUQİ ŞƏXSİ TENDER ELAN EDİR.**

"Dayanıqlı Və Operativ Sosial Təminat Agentliyi" publik hüquqi şəxsi açıq tender elan edir.
Elanda DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin inzibati binasının dam örtüyünün əsaslı təmir işlərinin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Sücayət Əliyeva, Aparıcı mütəxəssis
Email: sujayat.f.aliyeva@sosial.gov.az
Əlaqə telefonu:+994 12 525 50 26



**AĞDAM, FÜZULİ VƏ XOCAVƏND RAYONLARINDA BƏRPA,TİKİNTİ VƏ İDARƏETMƏ XİDMƏTİ PUBLİK HÜQUQİ ŞƏXSİ TENDER ELAN EDİR.**

Ağdam, Füzuli Və Xocavənd Rayonlarında Bərpa, Tikinti Və İdarəetmə Xidməti publik hüquqi şəxsi açıq müsabiqə elan edib. Elanda "Füzuli şəhərinin 3 nömrəli yaşayış məhəlləsində söküntü işləri"nin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Orxan İbadov, Satınalma şöbəsinin Böyük məsləhətçisi
Email: o.ibadov@afxbti.gov.az
Əlaqə telefonu: +994 55 386 15 15



**"AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT EHTİYATLARI AGENTLİYİ" PUBLİK HÜQUQİ ŞƏXSİ TENDER ELAN EDİR.**

"Azərbaycan Respublikası Dövlət Ehtiyatları Agentliyi" publik hüquqi şəxsi açıq tender elan edir.
Elanda Səngəçal filialının anbar kompleksində hasar tikinti işlərinin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi –

Asif Əliyev, Satınalma üzrə böyük mütəxəssis
Email: asif.aliyev@dea.az
Əlaqə telefonu: +994 12 210 01 95



**AĞDAM, FÜZULİ VƏ XOCAVƏND RAYONLARINDA BƏRPA,TİKİNTİ VƏ İDARƏETMƏ XİDMƏTİ PUBLİK HÜQUQİ ŞƏXSİ TENDER ELAN EDİR.**

Ağdam, Füzuli Və Xocavənd Rayonlarında Bərpa, Tikinti Və İdarəetmə Xidməti publik hüquqi şəxsi açıq tender elan edir.
Elanda “Xocavənd rayonunun Hadrut qəsəbəsində İnfrastruktur binasının tikintisi və çoxmənzilli yaşayış binalarının təmiri işləri”nin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Zabil Vəliyev, Baş məsləhətçi
Email: z.valiyev@afxbti.gov.az
Əlaqə telefonu: +994 50 466 12 66



**"MƏRKƏZİ NEFTÇİLƏR XƏSTƏXANASI" PUBLİK HÜQUQİ ŞƏXSİ TENDER ELAN EDİR.**

"Mərkəzi Neftçilər Xəstəxanası" publik hüquqi şəxsi açıq tender elan edir.
Elanda "Mərkəzi Neftçilər Xəstəxanasının poliklinika binasının əsaslı təmir işlərinin layihə-smeta sənədlərinin hazırlanması xidmətinin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi –

Murad Hüseynli, Satınalma şöbəsinin müdiri
Email: satinalma.mnx@tabib.gov.az
Əlaqə telefonu: +994 50 389 89 02





**www.atmia.az**